# GÖYƏRÇİN

ISSN- 0207- 4710
1
2005-ci il

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. №



## "KOROGLU"

Səh. 10-11





## NAGIL VAXTI

Səh. 8-9

## "AXTAR TAP"

Səh. 16-17






## "MƏNİM ŞƏHƏRİM"

Əliyeva Nərmin, (8 yaş),
Bakıdakı 23 saylı orta məktəbin
2-ci sinif şagirdi

# QIŞ NƏĞMƏLƏRİ

*Rafiq Yusifoğlu*

## QAR YAĞIR

Qar yağır narın-narın,
Qar yağır xırda-xırda.
Ayağımın altında
Başlayır xırthaxırtla.

Qar yağır noğul-noğul,
Qar yağır ulduz-ulduz.
Bir qar topu düzəltdim,
Əllərim oldu bumbuz.

Qar yağır inci-inci,
Qar yağır topa-topa.
Yağır Şaxta babanın
Saqqalından, üzündən,
Gözündən qopa-qopa.

Qar ələyir Qış nənə,
Dağı, düzü bəzəyir.
Meşədə yolkaları,
Onun özü bəzəyir.

Qar yağır ələk-ələk,
Qar yağır xəlbir-xəlbir.
Düzənlərin, dağların
Sən də seyrinə gəl bir!

Bax, çöllər yazılmamış
Varaq kimidir elə.
Təzə il qüdrətini
Göstərməyibdir hələ.

Təzə il dağ qoyacaq
Uca dağın üstünə.
Yazacaq öz sözünü
Ağ varağın üstünə.

## QIŞ

Şaxta soyuducunu
İşə salıb elə bil,
Göllərin üzərinə
Şüşə salıb elə bil.
Sanki qaymaqlayıbdır,
Seyr elə buzlu suyu.
Toxunma, əlin donar,
Qaymağı buzdu suyun...






## ŞAXTA BABA VƏ ÇAY

O qədər atılıb düşdü ki,
Fasilədə çay istədi
Şaxta baba.
Əgər içsən, əriyərsən,
Çay istidi, Şaxta baba.

Rəssam
İlqar Tofiqoğlu

## TURAC

Qapımı döyür Turac,
Ay nənə, dur aç, dur aç!
Soyuqdan gəlib axı,
Dondu əli, ayağı.
Boynunu şərflə örtüb,
Üzü soyuqdan pörtüb.
Yanaqları allanıb,
Şərfindən buz sallanıb.
Elə bil ki, qar qızdı,
Əl-ayağı bumbuzdu.
Qışla zarafat olmaz,
Gəlib isinsin bir az.
Sonra həyətə düşsün,
Top oynasın, sürüşsün.
Qapını döyür Turac,
Ay nənə, dur aç, dur aç!

## ƏLCƏK

Ay əlcək, əlcək,
Əlimdən əl çək!
Az-az qarlayır
Bizim dağlara.
Bəs mənim əlim
Dəyməsin qara?!



## KÜLƏK

Hey ağacları
Yelləyib bərk-bərk,
Hay-haray salır
Bayırda külək.
Qaşı görünmür,
Gözü görünmür.
İşi görünür,
Özü görünmür...



## QAR ADAM

Ay qar adam, qar adam,
Gəl incimə Qaradam.
Mən çöldə üşüyürəm,
Əriyirsən evdə sən.
İkimizin dostluğu
Tutmayacaq deyəsən...

## NOĞUL

Şaxta baba əyləşib,
Yolkamızın dibində.
Qışın soyuğu, qarı,
Noğul olub cibində.

Yolkanın ucu
İynə-iynədir.
Batdı əlimə,
Yaram göynədi.

Ağladım hönkür-hönkür,
Mən qabağa yeridim.
Şaxta baba bir ovuc
Noğul verdi, kiridim.

## ŞƏHƏRDƏ QAR YAĞIR

Buludlar aramsız
Yerə qar səpələr.
Ağ geyib dərələr,
Ağ geyib təpələr.
Maşınlar şütüyür
Belədən-beləyə.
Alovlu nəfəslər
Qarı su eləyər.
Yağsa da səhərdən,
Qar qalmır şəhərdə...

## ŞAXTA BABA

Yenə qarlı qış gördük,
Şaxta baba, xoş gördük!
Donub əlin, ayağın,
Qorxma, bir az gəl yaxın.
Bizim balaca Təhsin,
Sənə şe'rlər desin.
Üşüyürsənsə əgər,
Gəl otağa gir, isin!



# QAYIQÇI

## Koreya nağılı

Qoca bir qayıqçı var idi. Kim xahiş etsə, onu çayın bu sahilindən o biri sahilinə keçirərdi. Heç kəsdən pul istəməzdi, kim nə versə götürər, heç nə verməsə bir söz deməzdi.

Bir dəfə qoca gördü ki, çayda yoğun bir ilan üzür. İlan üzdü, üzdü birdən yorulub batmağa başladı. Qayıqçının ona yazığı gəldi. İlanı dartıb sudan çıxardı.İlan heç nə demədi. Ancaq elə ağladı, elə ağladı ki, göz yaşları səpilən yerdə gözəl-gözəl çiçəklər bitməyə başladı. Həmin çiçəklər indi dünyanın göz yaşıyla sulanan hər bir yerində bitir və ətir saçır.

Səhəri gün qayıqçı gördü ki, körpə bir cüyür üzüb çayın o biri sahilinə keçmək istəyir. Qoca elə ki, onun batdığını gördü, tez üzüb yazıq heyvanı xilas elədi.

Cüyür sudan çıxdı, dərdli-dərdli mələdi və meşəyə qaçdı.

Bir dəfə qoca meşəyə qış azuqəsi toplamağa getdi. Birdən onun qarşısına gözəl bir keçi çıxdı və ayaqları ilə yeri qazmağa başladı. Elə bu zaman əlində bel olan bir yolçu gözə dəydi. Keçi onu görən kimi qaçıb getdi.

Qoca isə həmin adamı yanına çağırıb xahiş etdi ki, buranı qaz.

Yolçu bellə yeri qazan kimi oradan qızıl çıxdı.

Qoca ona təşəkkür edib dedi:

- Qızılların yarsı sənindir, götürüb gedə bilərsən.

Yolçu razılaşmadı. Dedi ki, qızılların hamısı mənimdir. Ona görə ki, onları yerdən mən qazıb çıxarmışam.

Onlar mübahisə eləməyə başladılar. Nəhayət, qərara gəldilər ki, məhkəməyə müraciət etsinlər.

Hakim ədalətsiz qərar qəbul etdi, qızılları yer qazana verdi, qocanı isə həbs edib bir quyuya saldırdı.

Gecə xilas etdiyi ilan qocanın yanına gəlib, onun ayağını dişlədi. Səhər keşikçilər gördülər ki, qocanın ayağı şişib dam boyda olub. Fikirləşdilər ki, qoca bu gecə mütləq öləcək. Ancaq gecə ilan yenə sürünüb gəldi, gətirdiyi yarpağı dişlədiyi yaranın üstünə qoydu.

Səhərisi gün keşikçilər təəcübləndilər. Qocanın ayağı sağalmışdı, hətta yaranın izi də qalmamışdı.

Həmin gecə ilan sürünüb hakimin evinə getdi və onun arvadını çaldı. Qadının ayağı şişdi, az qaldı ki, arvad ölsün. Bunu eşidən məhbəs qaravolçuları quyuda qoca kişinin başına gələnləri danışdılar.

**Rəssam**
Ramil Əliyev



Hakim əmr etdi ki, qocanı həbsxanadan azad edib, onun yanına gətirsinlər. O, qocadan soruşdu:

- Necə oldu ki, sənin ayağının şişi çəkildi?

Qoca cavab verdi ki, vaxtilə xilas etdiyim ilan bir yarpaq gətirib yaranın üstünə qoydu, elə buna görə də sağaldım.

Hakim qocadan xahiş etdi ki, onun arvadını da sağaltsın. Qoca ilanın gətirdiyi yarpağı hakimin arvadının yarasına qoyan kimi, onun ayağının şişi çəkildi və sağaldı.

Hakim təəcübləndi və soruşdu:

- Bəs xilas etdiyin cüyür sənə əvəzində nə verdi?

- O da mənə qızılların yerini göstərmişdi. O qızılların ki, sən mənim əlimdən alıb yoldan ötənə verdin.

Hakim səhvini başa düşdü. Qızılları alıb, əsl sahibinə qaytardı, yolçunu isə həbsxanaya saldı.

*Tərcümə edib işləyəni: R. ƏLİYEV*



